# Elmə və təhsilə həsr olunmuş ömür



**Lənkəran rayonunun "Leninçi" (indiki "Lənkəran") qəzetinin 7 fevral 1974-cü il tarixli nömrəsində bir yazı diqqətimi çəkdi. Məqalədə qeyd olunur ki, Asəf Ağayev D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) V kursunda təhsil alır. Əla qiymətlərlə oxumaqla yanaşı, institutun ictimai həyatında fəal iştirak edir, Tələbə Elmi Cəmiyyətinin xətti ilə məqalələr çap etdirir. Azərbaycan radiosunun "Zəka" verilişində tez-tez çıxışlar edir.**

İstedadlı gəncin 1973-cü ildə respublika tələbələrinin I konfransında "İki sistem arasında iqtisadi yarışın müasir mərhələsinin xüsusiyyətləri" mövzusunda çıxışı birinci dərəcəli diploma, Daşkənd şəhərində keçirilən Ümumittifaq tələbə elmi konfransında həmin mövzuda çıxışı mükafata layiq görülüb.

Haqqında söhbət açdığımız Asəf Ağayev 25 aprel 1950-ci ildə Lənkəran rayonunun Seyidəkəran kəndində dünyaya göz açıb. Qonşu Xolmili kəndində orta məktəbi bitirib. D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda "Siyasi iqtisad müəllimi-iqtisadçı" ixtisası üzrə ali təhsil alıb.

Elm sahəsində perspektivli gənc kimi oxuduğu ali məktəbin "Siyasi iqtisad" ixtisası üzrə aspiranturasında təhsilini davam etdirib. Keçmiş sovet ordusu sıralarında həqiqi hərbi xidmətdən sonra Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun (Azərbaycan Memarlıq və İnşaat Universiteti) Siyasi iqtisad kafedrasında assistent kimi fəaliyyətə başlayıb.

1984-cü ildə V.İ.Lenin adına Belarus Dövlət Universitetində "İstehsal birliklərində istehsaldaxili təsərrüfat hesabının təkmilləşdirilməsi yolları" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsini alıb.

Elmə sonsuz həvəsi və bağlılığı, gərgin və yorulmaz axtarışları sayəsində keçmiş sovet dönəmində iqtisad elmi üzrə gənc alimlərdən biri olub. Elmi tədqiqatları və aldığı nəticələr aktuallığı ilə seçilib. Azərbaycan, Rusiya, Belarusun və digər xarici ölkələrin nüfuzlu elmi jurnallarında məqalələri dərc olunub. Gənc yaşlarından ölkəmizin iqtisadi yüksəlişinə, iqtisadiyyat elminin inkişafına dəyərli töhfələr verib.

Bacarıqlı elm və təhsil təşkilatçısı Asəf Ağayev 2000-2003-cü illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin tikinti-iqtisad fakültəsində dekan müavini vəzifəsində çalışıb. 2003-cü ildən İqtisadi nəzəriyyə və marketinq kafedrasına rəhbərlik edib. Universitetin Elmi Şurasının qərarı ilə fəxri professor adına layiq görülüb.

İqtisadçı alim ölkəmizin bu nüfuzlu elm və təhsil ocağında dövrün tələblərinə layiq mütəxəssis hazırlığında, elmi-tədqiqat işlərinin istiqamətlərinin, problem və mövzuların müəyyənləşdirilməsində təşəbbüskarlığı və səmərəli fəaliyyəti ilə fərqlənir. 2005-2018-ci illər ərzində universitetdə "Sahə iqtisadiyyatı" ixtisası üzrə dissertasiya şurasının üzvü və elmi katib vəzifəsini layiqincə icra edib.

Müxtəlif illərdə bir çox universitetlərdə Yekun Dövlət Attestasiya Komissiyalarına sədrlik edərək dövlət imtahanı, yaxud buraxılış işlərinin hazırlanması və müdafiəsi prosesinə obyektiv nəzarəti həyata keçirib.

Moskva, Daşkənd və Belarus Dövlət Universitetlərində təkmilləşdirmə kurslarında təhsil alıb, apardığı elmi-tədqiqat işləri və onların nəticələri haqqında məqalələrlə çıxış edib. İşlədiyi universitetin elmi şurasının üzvü və komissiya sədri, fakültə tədris-metodiki şurasının sədri və universitetin tədris-metodiki şurasının elmi katibi, dekan və kafedra müdirlərinin təyinolunma komissiyasının katibi kimi məqsədyönlü fəaliyyət göstərib.

Uzun illər ali təhsil sistemində səmərəli fəaliyyətinə görə 2010-cu ildə təhsil naziri tərəfindən fəxri fərmanla, 2016-cı ildə təhsilin inkişafındakı xidmətlərinə görə ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub.

Görkəmli iqtisadçı alim 3 dərslik, 5 dərs vəsaiti, 4 metodik vəsait, 200-dən artıq fənn proqramları və elmi məqalələrin müəllifidir. Azərbaycan Memarlıq və İnşaat Universitetində nəşr olunan "Elmi əsərlər" və "Tikintinin iqtisadiyyatı və menecment" jurnallarının redaksiya heyətinin üzvüdür.

**Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya İnstitutunun baş direktoru, texnika elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü İslam Mustafayev** həmkarı haqqında deyir: "Asəf müəllim çalışdığı universitetin elmmetrik və tədris göstəricilərinin yüksəldilməsi sahəsində səylərini əsirgəmir, rəhbərlik etdiyi kollektivi də qarşıda duran vəzifələrin icrasına səfərbər edir. Tədrisdə və ictimai fəaliyyətdə yüksək məsuliyyət, peşəkarlıq, yerinə yetirdiyi işin nəticələrinə tənqidi münasibət və təşəbbüskarlıq nümayiş etdirir. Peşəsinə sədaqətlə yanaşı, gözəl insani keyfiyyətlərə malikdir. İncə yumor hissi, hazırcavablılıq, məntiqi təfəkkür, ailəcanlılıq, fədakarlıq onu ətrafdakılara sevdirir və hörmət qazandırır".

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin İqtisadi nəzəriyyə və marketinq kafedrasının dosenti Əbülfət Kərimov:** "Asəf müəllimlə tanışlığımızın 50 illik tarixçəsi var. Biz tələbəlik illərindən tanışıq. O, fakültənin əlaçı, fəal tələbələrindən idi. Ali məktəbi bitirəndən sonra yollarımız yenidən birləşdi. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Siyasi iqtisad kafedrasında müəllim kimi işə başladıq. İllər dostluğumuza, yoldaşlığımıza heç bir xələl gətirməyib. Münasibətlərimizin çox səmimi, mehriban, uzunmüddətli olmasının bünövrəsində Asəf müəllimin zəngin dünyagörüşü, səbri və insanlarla ünsiyyət qurmaq bacarığı dayanır. Onun zəhmətsevərliyi, yüksək məsuliyyət hissi, müşahidəçilik və təhlil etmək qabiliyyətinə malik olması uğurlarının əsasını təşkil edir".

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri Nurməmməd Məmmədov** deyir: "Həyatda elə insanlar var ki, həmişə onunla ünsiyyətdə olmağa, dərdləşməyə ehtiyac duyursan. Bu insanlar həyatının ayrılmaz bir hissəsi olur. Hər hansı bir problemlə üzləşdikdə ilk növbədə onu axtarır, fikrini bilmək istəyirsən. Xoşbəxtlik ondadır ki, dərdləşdiyin, fikirlərini bölüşdüyün şəxs səni başa düşür, ağıllı məsləhətlər verir. Asəf müəllim belə şəxsiyyətlərdən biridir, bizim uzunmüddətli əlaqələrimiz, dostluğumuz var. Çox etibarlı, sadiq, sözünün yerini, çəkisini bilən, ürəyi saf, təmiz insandır. İqtisadiyyat elmində də xüsusi dəst-xətti vardır. Asəf müəllimin ailəcanlı olmasını da qeyd etmək istərdim. Gözəl ailəsi, yolunu davam etdirən layiqli övladları var. Qızı Könül xanım universitetimizin sayılıb-seçilən, mənim də fəxr etdiyim mütəxəssislərdəndir".

**Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisad elmləri doktoru Qabil Manafov:** "Professor Asəf Ağayevi 55 ildən artıq bir müddətdə tanıyıram. Universitetdə eyni qrupda oxumuşuq. Hələ tələbəlik dövründə Asəf elmə bağlılığı, yüksək marağı ilə seçilirdi. Məhz bu cür yüksək keyfiyyətlərinə görədir ki, Azərbaycan Memarlıq və İnşaat Universitetində adi müəllimlikdən kafedra müdiri vəzifəsinə qədər yüksəlib. Hazırda professor kimi nüfuzlu elmi adı şərəflə daşıyır.

Mən tələbə yoldaşımı, həmkarımı təhsil və elm sahəsində əməyi, zəhməti, xidmətləri ilə ucalmış, ölkəmizin iqtisadi tərəqqisinə töhfələr vermiş görkəmli iqtisadçı alim Asəf Ağayevi 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona elmi və ictimai fəaliyyətində yeni uğurlar, şəxsi həyatında xoşbəxtlik arzulayıram".

İqtisadçı alimin ictimai-siyasi fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin nəzəri irsinin və onun layiqli davamçısı Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf siyasətinin təhlili və təbliği önəmli yer tutur. 2015-ci ildən Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatının Azərbaycan Memarlıq və İnşaat Universiteti üzrə ilk partiya təşkilatının sədri kimi fəal iş aparır. Bu sahədə səmərəli və məqsədyönlü fəaliyyətinə görə dəfələrlə Fəxri fərman və digər mükafatlara layiq görülüb.

Övladları da ata yolunun davamçılarıdır. Qızı Könül Ağayeva 2005-ci ildə "Azərbaycanda xüsusi mənzil tikintisinin inkişafının perspektiv istiqamətləri" mövzusunda dissertasiya işini müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsini, 2010-cu ildə isə dosent adını almışdır. 2000-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin Xidmət sahələrinin iqtisadiyyatı və menecment kafedrasında assistent, baş müəllim, dosent vəzifəsində işləmiş, 2022-ci ildən isə elmi-pedaqoji fəaliyyətini İqtisadi nəzəriyyə və marketinq kafedrasında davam etdirir. Könül xanım, eyni zamanda 2023-cü ilin mart ayından universitetin keyfiyyət təminatı və monitorinq mərkəzinin direktorudur.

Oğlu Ramin Ağayev Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tikinti-iqtisad fakültəsinin bakalavr və magistratura səviyyəsini fərqlənmə diplomları ilə bitirib. "Mənzil tikintisində marketinq strategiyasının təkmilləşdirilməsi" mövzusunda dissertasiya işini uğurla müdafiə edib, iqtisad üzrə fəlsəfə doktorudur. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Kompleks Qazma İşləri Trestinin baş mühasibinin müavini vəzifəsində çalışır.

Professor Asəf Ağayev deyir ki, elm və təhsil gələcəyə açılmış qapıdır. Ölkəmizdə elm və təhsilin inkişafına dövlət səviyyəsində yüksək qayğı göstərilir. Hər bir alim, elm və təhsil təşkilatçısı qarşıda duran vəzifələrin icrasına, xalqın gələcəyi ilə bağlı məsələlərə əsl vətəndaş mövqeyi ilə yanaşmalı, bütün potensialını elmin və təhsilin inkişafına sərf etməlidir.

İstedadlı alim, peşəkar müəllim Asəf Ağayevin bütün həyatı elmə və təhsilə bağlıdır. Hazırda elmi-pedaqoji fəaliyyətinin ən yetkin və məhsuldar dövrünü yaşayır. Milli iqtisad elminin yorulmaz tədqiqatçısının mənalı ömür yolu, zəngin elmi yaradıcılığı doğma Vətənə xidmət nümunəsidir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

Respublika 2025.- 25 aprel (№ 82).- S.15.